**Aİ Tvinninq layihəsi AZ08/ENPPCA/FI/06**
**„AZƏRBAYCAN RESPUBLİKASININ DÖVLƏT STATİSTİKA KOMİTƏSİNƏ DƏSTƏK"**

# TVİNNİNQ MƏLUMAT BÜLLETENİ N° 1

## Mündəricat


Giriş qeydləri 1
Tvinninq müqaviləsinin təsdiq olunması 1
Müddəti 1
Məqsədi **Error! Bookmark not defined.**
TRM-in Bakıdakı ofisinin təqdimatı 4
Əlaqələr 5


## Ön söz

*Əziz oxucular,*

*Bu məlumat bülleteni ilə layihənin tərəfdaşlarına, ekspertlərə və bütün maraqlananlara Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi (Dövlətstatkom) ilə Almaniyanın Federal Statistika Ofisinin (Destatis) Bolqarıstanın Milli Statistika İnstitutunun (MSİ) yaratdığı konsorsium arasında yeni tvinninq layihəsinin başlandığına xəbər vermək istəyirik. Ümumi müddəti 27 ay olan layihə 2009-cu ilin noyabr ayının 13-də başlanmışdır. Tvinninq layihəsinin məqsədi Dövlətstatkomun milli hesablar, müşahidə olunmayan iqtisadiyyat, biznes statistikası və istehsalçıların qiymət indeksi sahələrində statistik imkanlarının genişləndirilməsinə yardım etməkdir. Bolqarıstandan, Çexiyadan, Almaniyadan və Litvadan olan ekspertlər layihəyə cəlb ediləcəklər.*

*İlk olan bu məlumat bülleteni vasitəsilə layihənin üzvlərini və komponent rəhbərləri olan Azərbaycan ekspertlərini sizə təqdim etmək istəyirik. Ümumən bülleten birgə tvinninq layihəsinin gedişi barədə məlumat verəcəkdir. Azərbaycanın statistika sisteminə xidmət edəcək əməkdaşlığımızı səbirsizliklə gözləyirik.*

| | |
|---|---|
| ***Bernd Störtzbax*** | ***Elka Atanasova*** |
| *Layihənin Almaniyadan olan rəhbəri, Destatis* | *Bolqarıstandan olan kiçik layihə rəhbəri,BNSI* |

***Sergey Tsvetarski**, TRM*

## Müddəti

| | |
|---|---|
| **13.11.2009** | Layihə başlanmışdır |
| **12.11.2011** | İcra müddətinin sonu (ekspert missiyaları üçün 24 ay) |
| **12.02.2012** | Tvinninq layihəsi başa çatacaqdır (hesabat vermə da daxil olmaqla 27 ay) |

## Məqsəd və layihənin strukturu

Tvinninq layihəsinin ümumi məqsədi Avropa standartlarına daha yaxın yeni metodologiya təqdim edərək Azərbaycanda rəsmi statistikanın təkmilləşdirilməsini dəstəkləməkdir.

Layihə 4 komponentdən ibarətdir:

Komponent 1: Milli hesablar
12 ekspert missiyası və 2 təlim səfəri

Komponent 2: Müşahidə olunmayan iqtisadiyyat
4 ekspert missiyası və 1 təlim səfəri

Komponent 3: Biznes statistikası
8 ekspert missiyası and 3 təlim səfəri

Komponent 4: İstehsalçıların qiymət indeksi
4 ekspert missiyası and 1 təlim səfəri

## Layihənin idarə olunması

| | | |
|---|---|---|
|  |  |  |
| Bernd Störtzbax<br>Layihə rəhbəri, Almaniya | Elka Atanasova, Kiçik layihə rəhbəri (Bolqarıstan)<br>Alxan Mansurov, Layihə rəhbəri (Azərbaycan) | Sergey Tsvetarski<br>Tvinninq üzrə Rezident Müşavir (TRM) |
|  |  |  |
| Fərhad Əliyev<br>TRM tərəfdaşı | Rəsmiyyə Əliyeva<br>TRM yardımçısı/Tərcüməçi | Rahib Qocayev<br>Tərcüməçi / TRM yardımçısı |

## Layihə - komponent rəhbərləri

| | | |
|---|---|---|
|  |  |  |
| Nuru Suleymanov<br>Komponent 1 və 2 üzrə rəhbər<br>Milli hesablar statistikası şöbəsinin rəisi | Yusif Yusifov<br>Komponent 3 üzrə rəhbər<br>Sənaye, nəqliyyat və rabitə statistikası şöbəsinin rəisi | Faiq Hacıyev<br>Komponent 3 üzrə rəhbər<br>Statistika işlərinin əlaqələndirilməsi şöbəsi, Biznes registr və təsnifatlar sektorunun müdiri |

| | |
|---|---|
|  |  |
| Elçin Hacı<br>Komponent 3 üzrə rəhbər<br>Baş məsləhətçi, Statistika işlərinin əlaqələndirilməsi şöbəsi, Biznes registr və təsnifatlar sektoru | Natella Quliyeva<br>Komponent 4 üzrə rəhbər<br>Qiymət statistikası şöbəsinin rəisi |

## Tvinninq üzrə resident müşavir (TRM) Sergey Tsvetarski:

1982-ci ildə Sofiyada Dünya və Milli iqtisadiyyat universitetini statistika ixtisası üzrə bitirdikdən sonra özümü statistikaya həsr etmişəm. Ötən dövrdən bəri 1995-98-ci illərdə qısa fasilə ilə Bolqarıstanın Milli Statistika İnstitutunda (BMSİ) işləyirəm. 1995-98-ci illərdə Bolqarıstanın ilk mobil rabitə operatoru olan MobilTel-də marketinq və reklam şöbəsinə rəhbərlik etmişəm. Marketinqin statistikaya çox yaxın olmasına baxmayaraq statistik olaraq özümü yalnız statistika institutunda görərək MSİ-ə geri döndüm.

Karyerama 1985-ci il Əhali siyahıyaalınması ilə başladığım dövrdən demoqrafiya statistikasına vurğunam. 1987-ci ildən sonradan adı “Demoqrafiya Statistikası” olan həyat statistikası bölməsinə rəhbərlik etmişəm. 1995-ci ilədək müasir metodlardan daha çox istifadə etməklə şöbənin fəaliyyətini genişləndirmiş və əhali proqnozları verməyə başlamışdıq. 90-cı illərin əvvəllərindən UNİCEF-in MONEE layihəsi (Şərqi Avropa ölkələrində keçidin monitorinqi) ilə əməkdaşlıq edərək sosial statistika və göstəricilər sistemi ilə də işləməyə başladım. 2000-ci ildə “Regional statistika” şöbəsi yaradılanadək 1998-ci ildən BMSİ-nin Prezidentinin müşaviri işləmişəm. Şöbə yaradılandan ona rəhbərli edirəm və belə qənaətə gəlmişəm ki, statistikanın demoqrafiyadan başqa maraqlı sahələri var imiş və bu regional statistikadır. 2004-05-ci illərdə PHARE layihəsi çərçivəsində Regional statistikanın məlumat sistemini yaratmış və BMSİ-nin internet səhifəaində yerləşdirmişik.

Müxtəlif təşkilatlarla işim mənim biliklərim artırılmasına xeyli təsir etmişdir:

- AVROSTAT, UNDP, UNICEF, UNFPA və AB-nin maliyyələşdirdiyi layihələr;
- Benefisiar tərəfi olaraq – regional statistikanın təkmilləşdirilməsi üzrə yuxarıda qeyd olunan a PHARE layihəsinin rəhbəri; “BMSİ-nin İnzibati imkanlarının gücləndirilməsi” adlı tvinninq layihəsində komponent rəhbəri və “BMSİ-nin regional strukturunun yenidən qurulması” ” adlı tvinninq layihəsində alt-komponent rəhbəri

İngilis və rus dillərində sərbəst danışıram, fransız dilində bir qədər bilirəm.

## Tərcüməçi/TRM yardımçısı Rahib Qocayev:

Azərbaycan Dillər Universitetində bakalavr dərəcəsi üzrə təhsilimi başa vurduqdan sonra Almaniyanın Axen Universitetində Avropa tədqiqatları üzrə magistr dərəcəsi (2006) almışam. Magistr dərəcəsi üzrə təhsilim DAAD və Açıq Cəmiyyət İnstitutunun iki illik təqaüd dəstəyi ilə baş tutub.

Almaniyanın Azərbaycandakı Səfirliyinin mətbuat və ictimai işlər bölməsində yardımçı vəzifəsində işləmişəm. Alman, ingilis, rus və azərbaycan dillərini bilməyim dövlət rəsmiləri ilə, o cümlədən iqtisadi və ticarət məsələləri üzrə aparılan danışıqlarda çox yardımçı olub.

Dil bacarıqlarıma və professional təcrübəmə görə 3 ildən artıq müxtəlif vəzifələrdə çalışaraq Azərbaycanın və Cənubi Qafqaz regionunun siyasi və makro-iqtisadi vəziyyəti barədə məlumata malikəm.

2009-cu ilin noyabr ayından bu layihədə Tərcüməçi/ TRM-in yardımçısı kimi işləyirəm.

## TRM yardımçısı/Tərcüməçi Rəsmiyyə Əliyeva:

Azərbaycan Dövlət İqtisad Universitetini bitirdikdən sonra 1988-1997-ci illərdə Dövlətstatkomda çalışmışam. Komitədə son vəzifəm Milli hesablar şöbəsinin rəisi olub. 1997-ci ildən bəri Avropa Komissiyasının, Dünya Bankının, UNICEF-in Azərbaycanda və Moldovada maliyyələşdirdikləri müxtəlif layihələrə ekspert kimi cəlb edilmişəm.
2009-cu ilin dekabr ayından bu layihədə TRM-in yardımçısı/Tərcüməçi kimi işləyirəm.

Azərbaycan, ingilis və rus dillərində sərbəst danışır, yazıb oxuyuram.

## Əlaqələr

**Layihənin idarə olunması**

| **Ad** | **Vəzifə** |
|---|---|
| Sergey Tsvetarski | Tvinninq üzrə Rezident Müşavir(TRM)<br>tsvetarsky@azstat.org<br>Tel: +99412 5105274 |
| Rəsmiyyə Əliyeva | TRM yardımçısı/Tərcüməçi<br>rasmiyya@azstat.org<br>Tel: +99412 5105274 |
| Rahib Qocayev | TRM yardımçısı/Tərcüməçi<br>gojayev@azstat.org<br>Tel: +99412 5105274 |
| Bernd Störtzbax | Layihənin Almaniyadan olan rəhbəri<br>bernd.störtzbach@destatis.de<br>Tel: +49 611512351 |
| Elka Atanasova | Bolqarıstandan olan kiçik layihə rəhbəri<br>EAtanasova@NSI.bg<br>Tel: +35929857775 |
| Alxan Mansurov | Layihənin Azərbaycan dan olan rəhbəri<br>alkhan@azstat.org<br>Tel: + 99412 4398104 |
| Fərhad Əliyev | TRM tərəfdaşı Azərbaycan<br>farhada@azstat.org<br>tel: +99412 4394762 |

**Komponent rəhbərləri**

| **Ad** | **Vəzifə** |
|---|---|
| Nuru Suleymanov | Komponent 1 və 2 üzrə rəhbər<br>**Milli hesablar**<br>və<br>**Müşahidə olunmayan iqtisadiyyat** |
| Yusif Yusifov,<br>Faiq Hacıyev,<br>Elçin Hacı | Komponent 2 üzrə rəhbərlər:<br>**Biznes statistikası** |
| Natella Quliyeva | Komponent 4 üzrə rəhbər<br>**İstehsalçıların qiymət indeksi** |